# Edilli vandalizmi dünya mediasında

**Hazırda dünya ictimaiyyətinin və aparıcı kütləvi informasiya vasitələrinin nəzər-diqqəti Xocavənd rayonunun Edilli kəndinə yönəlib.**

"Əl-Cəzirə" xəbər bülleteni və "Frans Press" agentliyi "Dağlıq Qarabağda 1990-cı illərdəki müharibədən qalma kütləvi məzarlıq tapılıb" sərlövhəli məlumat yayıblar. Bildirilir ki, Azərbaycanın ərazisində, Xocavənd rayonunun Edilli kəndində kütləvi məzarlıqda insan qalıqları tapılıb. Həmin məzarların 1990-cı illərdə Dağlıq Qarabağ bölgəsi uğrunda müharibə zamanı erməni separatçı qüvvələri tərəfindən qətlə yetirildiyi iddia edilən azərbaycanlı əsgərlərə məxsus olduğu bildirilir.

Müəllif Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə istinadən yazır ki, 1990-cı illərdəki müharibədə 4000 Azərbaycan əsgəri və mülki vətəndaş itkin düşüb. Ermənistan kütləvi məzarlıqların yerlərini açıqlamaqdan imtina edir. Həmçinin bildirilir ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məsul işçisi Namiq Əfəndiyevin dediyinə görə, "Fevral ayından bəri kütləvi məzarlıqda 25 insan qalığı aşkar edilib".

Türkiyənin "Anadolu" agentliyi də Edilli kəndində aşkarlanan kütləvi məzarlıq barədə məlumat yayıb. Qeyd edib ki, üzərindəki paltar və əşyalardan meyitlərin Azərbaycan əsgərlərinə məxsus olduğu müəyyənləşdirilib. Bəzi kəllə sümüklərindəki dəliklər əsgərlərin güllələnərək qətlə yetirildiyini göstərir. Azərbaycan Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məsul işçisi Namiq Əfəndiyev agentliyə bildirib ki, 1-ci Qarabağ müharibəsində itkin düşmüş azərbaycanlıların tapılması üçün 2022-ci ilin fevral ayından bölgədə qazıntı işləri aparılır.

Agentlik əməkdaşı N.Əfəndiyevə istinadən yazır: "Sentyabrın 26-da aparılan qazıntılarda 12 nəfərin hərbi geyimli qalıqları aşkar edilib. Ehtimal edilir ki, bunlar ermənilər tərəfindən qətlə yetirilərək basdırılan Azərbaycan əsgərləridir. Qalıqlardan DNT analizi alınacaq və şəxsiyyətləri müəyyən ediləcək".

**Əliqismət BƏDƏLOV, "Xalq qəzeti"**

Xalq qəzeti .-2022.- 9 oktyabr.- S.7.